

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 101 (23.513)

30 iyun 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 29-da “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunun bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma Qoşa Qala qapılarının və ona bitişik olan qala divarlarının bərpası, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunda bu il görülən və gələn il icra olunacaq işlər, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən “İstedArt” layihəsi barədə məlumat verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2016-cı ildə Qoşa Qala qapıları yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən XVII əsrə aid Yeraltı hamama baxıb, Bakı Xan Sarayı Kompleksində aparılan bərpa işləri ilə tanış olublar. Burada “Baqqal” suvenir və ənənəvi sənətkarlıq nümunələrinin sərgi və satış qalereyası, İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi yaradılıb.

Bildirilib ki, Bakı şəhərinin tarixində əhəmiyyətli yeri olan Bakı Xan Sarayı yaxın gələcəkdə əsaslı yenidənqurma, aparılan konservasiya və bərpa işlərindən sonra muzey şəklində ictimaiyyətə təqdim ediləcək.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini veriblər.

## Muxtar respublikada taxıl biçini mütəşəkkil aparılır





Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Torpaqlarımız, hava, su, ərazimiz Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, istifadə olunmalıdır”.***

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasında torpaq və su ehtiyatlarından səmərəli istifadə, əkinçiliyin inkişafı mühüm yer tutur. Mütərəqqi irriqasiya sistemlərinin qurulması əkin sahələrini genişləndirir, uzun illər əkilməyən torpaqlarda bol məhsul istehsalına zəmin yaradır. Xüsusilə strateji ərzaq məhsulu taxıla olan tələbatın yerli istehsal hesabına ödənilməsi, iqlim xüsusiyyətlərinə uyğun keyfiyyətli toxum sortlarından istifadə və məhsulun itkisiz yığılması qarşıda duran əsas vəzifələrdəndir.

İyunun 27-də “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsində muxtar respublikada taxıl biçininin gedişi və qarşıda duran vəzifələr barədə səyyar müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev məlumat vermişdir ki, bu ilin məhsulu üçün muxtar respublikada 36 min 879 hektar taxıl əkilmişdir ki, onun da 7 min 282 hektarı dəmyə sahələrdir. Taxıl biçininin optimal müddətdə keyfiyyətlə başa çatdırılması üçün 107 taxılbiçən kombayn, 295 qoşqu, 301 kipvuran, 81 özüboşaldan avtomaşın, 602 traktor, 38 toxumtəmizləyən aqreqat saz vəziyyətə gətirilmişdir. 2019-cu ildə və bu ilin ötən dövründə muxtar respublikada 18 kombayn lizinq yolu ilə fiziki şəxslərə satılmışdır. Hazırda biçinə cəlb olunan “Dominator Klass”, “New Holland” və “Sampo” markalı müasir kombaynların 93-ü fiziki şəxslərə, 7-si “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinə, 6-sı isə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə məxsusdur.

Taxıl biçinində iştirak edən kombayn, maşın və mexanizmlərin davamlı işləməsi təmin edilmiş, zəruri ehtiyat hissələri alınmış, texniki xidmət təşkil olunmuşdur. Bundan başqa, Naxçıvan şəhərində ehtiyat hissələrin satışı bazarı və mağazalarda da lazım olan hissələr mövcuddur. Həmçinin taxıl zəmilərində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin 12 yanğınsöndürmə qrupu xidmət aparır.

Bu günə qədər muxtar respublika üzrə 10 min 655 hektar sahədə biçin aparılmışdır.



Məhsuldarlıq 28,3 sentnerdir. Ali Məclis Sədrinin tapşırığına əsasən buğdanın hər kiloqramı 38, arpanın hər kiloqramı 35, qarğıdalının isə hər kiloqramı 40 qəpikdən qəbul edilərək dəyəri yerində ödənilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafına xüsusi qayğı göstərilir. Yeni texnikaların alınması, torpaq mülkiyyətçilərinə subsidiyaların verilməsi, suvarma sistemlərinin yenidən qurulması, məhsuldar toxum sortları ilə təminat və mütəxəssis hazırlığı kənd təsərrüfatının hərtərəfli inkişafına səbəb olmuş, Azərbaycanda enerji təhlükəsizliyi ilə yanaşı, ərzaq təhlükəsizliyinə də nail olunmuşdur. Naxçıvan Muxtar Respublikasında da bu sahəyə diqqət göstərilir. Qəbul olunmuş Dövlət proqramlarının tərkib hissəsi kimi ardıcıl tədbirlər həyata keçirilir, mütərəqqi suvarma sistemləri qurulur, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır, müasir texnikalar alınıb gətirilir, torpaq mülkiyyətçiləri keyfiyyətli və məhsuldar toxum sortları ilə təmin edilirlər.

Ali Məclisin Sədri demişdir: “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin əkin sahələri vaxtilə istifadəsiz torpaqlar idi. Lakin 1200 hektarda yeraltı suvarma şəbəkəsinin qurulması bir neçə ildir, bu ərazidən bol məhsul götürülməsinə imkan verir. Bu gün muxtar respublikada taxıl əkilən 36 min hektardan artıq ərazinin 10 min hektardan çoxu biçilib. Yaradılan şəraitin nəticəsidir ki, biçin mütəşəkkil aparılır. Kombayn təminatı, taxılın ərazidən rahat daşınması və qəbulu, şumun vaxtında aparılması əhali tərəfindən razılıqla qarşılanır. Bütün bunlar isə onu deməyə əsas verir ki, gələcəkdə də muxtar respublikanın taxıl zəmilərindən yüksək nəticələr əldə etmək mümkün olacaqdır.

Ali Məclisin Sədri bu işdə əməyi olanlara təşəkkürünü bildirmiş, taxıl biçininin iyulun sonuna qədər başa çatdırılması və növbəti əkinə hazırlıq barədə tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov, Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov, Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev, Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov, Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri Şamı Abdullayev, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev və “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vasif Məmmədov taxıl biçininin gedişi ilə bağlı aidiyyəti üzrə məlumat vermişlər.

Baxış zamanı qeyd olunmuşdur ki, “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 2 min hektar əkin sahəsi ayrılmışdır. Bu ilin məhsulu üçün 1300 hektar sahədə taxıl əkilmişdir. Əkin şırım üsulu ilə aparılmış, yerli iqlim şəraitinə uyğunlaşdırılmış yüksək məhsuldar “Qobustan”, “Quality”, “Bezost” və “Fatimə” toxum sortlarından istifadə olunmuşdur. Bu günə qədər 205 hektar sahə biçilmişdir.

Toxumçuluq təsərrüfatının kollektivi ilə görüşən Ali Məclisin Sədri demişdir: Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasının və toxumçuluq təsərrüfatının yaradılmasının muxtar respublikanın ərzaq təminatında xüsusi yeri vardır. Həmçinin təsərrüfatın müasir texnikalarla təmin olunması yeni iş yerlərinin açılmasına və mütəxəssislərin yetişməsinə səbəb olub. Əsas ərzaq məhsulu olan taxılın əkilməsi, becərilməsi və biçilməsi müqəddəs işdir. Kollektivin əməyinin bəhrəsindən muxtar respublikanın hər bir sakini bəhrələnəcək, onlar sağlam və keyfiyyətli məhsulla təmin olunacaqdır.

Ali Məclisin Sədri toxumçuluq təsərrüfatının formalaşmasında dövlət qayğısı ilə yanaşı, kollektivin də əməyinin olduğunu bildirmiş, onlara işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri taxıl sahələrindən nümunələr götürülməsi və məhsuldar yerli sortların artırılması, toxumların qiymətinin təsdiq olunması, tikilən qapalı suvarma şəbəkələrində işlərin payız əkinlərinə qədər başa çatdırılması barədə aidiyyəti üzrə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Qəbul imtahanında əla qiymət almaqdan böyük elmə
## *Professor Hüseyn Həşimlinin xatirəsinə*

***Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Hüseyn Həşimlinin vəfat etməsi haqqında xəbəri qəfildən eşitdikdə dərindən sarsıldım. İlk növbədə, əlli beş illik ömrünün ən azı otuz ili mənimlə birlikdə keçən çətin və mənalı dövrü ərzində yaddaşıma əbədilik həkk olunmuş Hüseyn Həşimlinin təmkinli siması bir an içində gözümün önündən keçdi və bu acı xəbər qəlbimdə şimşək kimi çaxdı. Təxminən, iyirmi gün bundan əvvəl telefonla danışıb, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun birlikdə hazırlanmasına start verdiyimiz “Müstəqillik dövrü Naxçıvan ədəbi mühiti” kitabının müəllifləri heyəti haqqında dəqiqləşdirmələr aparmış, hal-əhval tutmuşduq. Sonra xəstəxanada müalicə olunması haqqında heç bir məlumat almamışdım. Vəfatından bir gün əvvəl mobil telefonuna zəng vurmuşdum, cavab ala bilməsəm də, ürəyimə heç bir şübhəli hiss dolmamışdı. Arxayın idim ki, işə-gücə, yazı-pozuya çox bağlı olan Hüseyn Həşimli telefonda nömrəni görən kimi özü zəng açacaqdır. Lakin bir gün sonra Naxçıvandakı keçmiş tələbələrimizdən biri Hüseyn Həşimlinin vəfatı haqqında xəbəri çətinliklə olsa da dilinə gətirdi.***



Hüseyn Həşimli ilə bağlı xatirələrimdən bəzi notları yada salıram:

Hüseyn Həşimlini 1982-ci il avqust ayının əvvəllərində Naxçıvan Dövlət Universitetində qəbul imtahanı zamanı tanımışdım. Ədəbiyyat üzrə şifahi imtahandan biletə düşən sualların hamısına mükəmməl cavab vermişdi. O zaman belə bir yazılmamış qayda var idi ki, abituriyentə “əla” qiymət yalnız qəbul imtahanına nəzarət edən dövlət nümayəndəsinin və rektorun iştirakı ilə verilə bilərdi. Əla qiymət almaq iddiasında olan abituriyentlər fənn komissiyasının qarşısında göstərdiyi biliyi çox vaxt dövlət nümayəndəsinin və rektorun iştirakı ilə aparılan sorğuda psixoloji gərginliyə görə doğrultmaqda çətinlik çəkirdilər. Belə hallarda rəhbərləri imtahana dəvət edən müəllim də, qiyməti aşağı yazılan abituriyent də çətinlik qarşısında qalırdı. Ona görə də qəbul imtahanlarında “yaxşı” qiymətdən narazı qalıb, “əla” almaq arzusunu ifadə edən abituriyent də, həmin arzunu həyata keçirmək üçün dövlət nümayəndəsini və rektoru dəvət etməli olan müəllim də az hallarda belə addımlar atmağa səy göstərirdi. Bu dəfə də belə bir hal baş verdi. Abituriyent Hüseyn Həşimli imtahan biletindəki sualların hamısına cavab verdikdən sonra ona elan edilən “yaxşı” qiyməti ilə razı olmadığını çox təbii bir nəzakətlə bildirdi. Həqiqətən də abituriyentin biliyi “əla” qiymətə layiq idi. Dövlət komissiyasını və rektoru dəvət etməmişdən qabaq Hüseyn Həşimliyə bir neçə əlavə suallar verib fikrimi qətiləşdirmək istədim. Bütün suallara çox dolğun cavab aldıqdan sonra qəbul imtahanlarına nəzarət edən Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərovu və Naxçıvan Dövlət Universitetinə yeni rektor vəzifəsinə təyin edilmiş tarix elmləri doktoru, professor İsaq Məmmədovu imtahana dəvət etdim. Hüseyn Həşimli bir qədər gərginlik keçirsə də komissiyanın suallarının hamısına inamla qaneedici cavablar verdi. Vilayət Partiya Komitəsi katibinin abituriyentin atasının harada işləməsinə dair sualına cavab verərkən Hüseyn Həşimli bir qədər duruxdu. Düşündüm ki, yəqin rayon səviyyəsində hər hansı bir vəzifə sahibi olduğu üçün abituriyent fikrini açıq ifadə etmək istəmir. Lakin onun bu suala çətinliklə verdiyi gözlənilməz cavab məni ehtimal edilə biləcək çətinlikdən tam xilas etdi:

– Atam vəfat edib.

Vilayət Partiya Komitəsinin katibi: – “Əla” ilə qiymətləndirmək olar. Get, radio qovşağı ilə çıxış et və qəbul imtahanları haqqında öz fikrini bildir.

Komissiya imtahan otağından gedər-getməz Hüseyn Həşimlinin aşkarlıq dövrünün hadisəsi kimi quraşdırılmış radio qovşağı ilə pafossuz, lakin daxili bir inamla dediyi aşağıdakı bir-iki cümləni indi də xatırlayıram:

– İmtahanlar ədalətli keçir. Mənim kimi sadə kənd uşaqları da öz biliyi ilə “əla” qiymət ala bilirlər.

Həyatının sonrakı bütün mərhələlərində Hüseyn Həşimli, sözün həqiqi mənasında, nəcib insani keyfiyyətləri, yorulmaz zəhməti və “öz biliyi” ilə müəllimlərinin və ailə üzvlərinin başını uca etdi. Çoxsaylı belə hadisələrdən daha iki əhvalatı oxuculara çatdırmaq istəyirəm.

Səhv etmirəmsə, üçüncü kursda oxuduğu vaxt, təxminən, 1984-cü ildə Hüseyn Həşimli Azərbaycan ali məktəb tələbələrinin Bakı şəhərində keçirilən Respublika tələbə elmi konfransında “Azərbaycan ədəbiyyatında alleqoriya” mövzusunda məruzə ilə çıxış etmişdi. Görkəmli ədəbiyyatşünas alim, Azərbaycan Dövlət Universitetinin kafedra müdiri, professor Pənah Xəlilovun rəhbərlik etdiyi Ədəbiyyat bölməsinin iclasında ölkə üzrə səkkiz ali məktəbin iyirmiyə yaxın tələbəsinin məruzəsi dinlənilmişdi. Ən çox fərqlənən bir nəfər tələbəyə Ali Təhsil Nazirliyinin təsis etdiyi “Ən yaxşı elmi-tədqiqat işinə görə” medalının (döş nişanının) verilməsi nəzərdə tutulmuşdu. Bölmədə çıxış edənlərdən iki nəfər – Naxçıvan Dövlət Universitetinin tələbəsi Hüseyn Həşimli və Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) tələbəsi ən çox fərqləndirilən məruzəçilər olmuşdu. Pənah müəllim hər iki tələbənin məruzəsi haqqında obyektiv fikir bildirsə də, istər-istəməz müqayisədə az da olsa, üstünlüyü öz tələbəsinə vermişdi. Mübahisəni həll etmək üçün Ali Təhsil Nazirliyi Elm idarəsinin müdiri, texnika elmləri namizədi, dosent Valeh Orucovu və Naxçıvan Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyətinin sədri, Respublika tələbə elmi konfransına göndərilmiş heyətin rəhbəri kimi məni Ədəbiyyat bölməsinin yekun iclasına dəvət etdilər. Hüseyn Həşimli də, Bakı Dövlət Universitetinin tələbəsi də, həqiqətən çox yaxın bir səviyyədə bilik nümayiş etdirdilər. Ali Təhsil Nazirliyinin nümayəndəsi Valeh Orucov hər iki tələbəyə “Ən yaxşı elmi-tədqiqat işinə görə” medalı verilməsi haqqında o vaxt bu dövlət qurumuna rəhbərlik edən Qurban Əliyevə əlavə təqdimat yazmaq haqqında qərar qəbul etdi. Sonralar gördüm ki, Hüseyn Həşimli haqlı olaraq tələbəlik illərində respublika üzrə tələbə elmi işlərinin müsabiqəsində “Ən yaxşı tələbə elmi-tədqiqat işinə görə” medalını qazanmasını tərcümeyi-halında qeyd edib. Halallıqla, zəhmətlə qazanılanda mükafatın böyüyü-kiçiyi olmur.

Hüseyn Həşimli ilə əlaqədar başqa bir hadisə də unudulmazdır. 1998-ci ildə Naxçıvan Dövlət Universiteti üçün Azərbaycan ədəbiyyatı ixtisası üzrə Dissertasiya Şurası yaradılmasına ilk dəfə icazə almışdıq. O vaxta qədər hələ ölkəmizin paytaxtından başqa digər regionlarda dissertasiya şuraları təsis edilməmişdi.

Ali Attestasiya Komissiyasının sədri, dünya şöhrətli görkəmli elm xadimi, akademik Azad Mirzəcanzadə Naxçıvan Dövlət Universitetində Dissertasiya Şurasının yaradılması haqqında qərar qəbul edərkən şuranın ilk iclasında iştirak edəcəyini bildirmişdi. Başa düşürdük ki, həddindən artıq tələbkar alim olan Azad müəllimin iştirak edəcəyi həmin iclasda yaranan təəssürat Dissertasiya Şurasının gələcək fəaliyyətində həlledici faktor olacaqdır. Elmi rəhbəri olduğum Naxçıvan Dövlət Universitetinin müəllimi Hüseyn Həşimlinin “Azərbaycan ədəbiyyatında sentimentalizm” mövzusunda yazıb tamamladığı dissertasiyasını Şuranın ilk iclasında müdafiəyə çıxarmağa qərar verdik. Ali Attestasiya Komissiyasının sədri, akademik Azad Mirzəcanzadə və digər kimi, Naxçıvan Dövlət Universitetində təşkil edilmiş Dissertasiya Şurasının 2 sentyabr 1998-ci il tarixli iclasında iştirak etmək üçün qurumun bir neçə əməkdaşı ilə birlikdə Naxçıvana gəldi. Dissertasiya Şurasının ilk iclasında ədəbiyyatşünaslıq elminin tanınmış simaları – Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, professor Yaşar Qarayev və Azərbaycan Dillər Universitetinin rektoru, professor Qorxmaz Quliyev də dəvət olunmuş üzvlər kimi iştirak və çıxış etdilər.

Hüseyn Həşimli həmişəki kimi pafosdan uzaq, təmkinlə, sanki riyaziyyatçı dəqiqliyi və analitik təfəkkürlə sentimentalizm cərəyanının estetikası və poetikası haqqında öz sözünü dedi.

Azad Mirzəcanzadə iddiaçı Hüseyn Həşimliyə verdiyi dissertasiyaya aid olan və olmayan çətin, ikibaşlı sualların hamısına onu qane edən cavablar aldı. Nəhayət, Azad müəllimin axırıncı sualı belə oldu: – Valideyniniz harada işləyir?

Hüseyn Həşimlinin azca hiss olunan qəhərli cavabı cəmi bir sözdən ibarət idi: – Yoxdur!

Cavab nə qədər kədərli olsa da, akademik Azad Mirzəcanzadə kimi tələbkar və çətin xarakterə malik bir alimin dissertant haqqındakı xoş təəssüratlarını bir qədər də möhkəmləndirdiyi üçün zaldan gələn alqış səsləri ilə qarşılandı. Dissertasiya Şurasının ilk iclasında akademik Azad Mirzəcanzadənin qısa məzmunlu və qəti mövqe ifadə edən çıxışını az qala sözbəsöz xatırlayıram: – Əgər Dissertasiya Şurası Naxçıvanda yox, Bakıda keçirilsə idi (yəni Naxçıvana görə verildiyini yozanlar olmasa idi) heç tərəddüd etmədən elə bu iclasda iddiaçıya filologiya elmləri namizədi alimlik dərəcəsinin verilməsi haqqında Ali Attestasiya Komissiyasının qərarını elan edərdim.

Hüseyn Həşimlinin sənədləri Ali Attestasiya Komissiyasına təqdim edildikdən cəmi iki gün sonra təsdiq edildi…

Filologiya elmləri doktoru, professor Hüseyn Həşimlinin namizədlik dissertasiyası kimi müdafiə etdiyi “Azərbaycan ədəbiyyatında sentimentalizm” mövzusundakı dissertasiyası ədəbiyyatşünaslıq elmimizdə tam yeni olan bir problemə həsr edilmiş ciddi elmi-tədqiqat işidir. Bu, Azərbaycan ədəbiyyatşünaslıq elmində konkret bir ədəbi cərəyana həsr edilmiş bir alin barmaqları ilə sayılacaq qədər az olan sanballı elmi-tədqiqat işlərindən biridir. Mövzunu az da olsa, tərəddüdlə qarşılayanlar olsa da, Hüseyn Həşimli böyük zəhməti və aydın elmi təfəkkürü ilə Azərbaycan ədəbiyyatında “sentimentalizm” adlı bir ədəbi cərəyanın olduğunu və həmin cərəyanın ona yaxın olan romantizmdən fərqli xüsusiyyətləri ilə seçildiyini müəyyən edə bilmişdir.

Hüseyn Həşimlinin 2011-ci ildə “Azərbaycan ədəbiyyatında Avropa mənşəli lirik janrlar” mövzusunda böyük uğurla müdafiə etdiyi doktorluq dissertasiyası da əhatə etdiyi problemin yeniliyinə və yüksək professionallıq səviyyəsində elmi həllinə görə hadisə kimi qəbul edilmişdir. Onun eyni adla çap olunmuş monoqrafiyası respublika elmi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmışdır.

Professor Hüseyn Həşimli elmi fəaliyyətində ədəbiyyat nəzəriyyəçiliyi ilə ədəbiyyat tarixçiliyini qoşa qanad kimi inkişaf etdirmiş və onların qarşılıqlı əlaqəsi əsasında orijinal elmi əsərlər yazıb nəşr etdirmişdir. Alimin ədəbiyyat nəzəriyyəsi üzrə ədəbi cərəyanlara, lirik ədəbi növün janrlarına, klassik ədəbi irsə və mənsur şeirin poetikasına həsr olunmuş tədqiqatları yüksək nəzəri səviyyəsi və fakt zənginliyi ilə səciyyələnir. Hüseyn Həşimli hazır sxemlərdən deyil, ədəbiyyat tarixinin daxili təkamül proseslərindən çıxış edərək nəzəri model yaratmağı bacaran alimlərdən idi. Hüseyn Həşimlinin imzası onun elmdə özünüisbatının möhürü idi.

Ədəbiyyat tarixçisi kimi də Hüseyn Həşimli təkbaşına çox mühüm işlərin öhdəsindən gəlmişdir. XX əsrin əvvəllərində yaşayıb-yaratmış Əli Səbri Qasımov, Səid Səlması, Əli Məhzun, Məhəmmədəli Sidqi, Nemət Bəsir, Fərhad Ağazadə və başqaları kimi həyat və fəaliyyətləri çox az öyrənilmiş Azərbaycan yazıçı və şairlərinin tərcümeyi-hallarını, yaradıcılıq yollarını araşdırıb tədqiq etmiş, əsərlərini üzə çıxarıb kitab halında çap etdirməklə ədəbi-elmi ictimaiyyətə çatdırmışdır. “İzzəddin Həsənoğlunun ədəbi irsi” adlı monoqrafik tədqiqatı Hüseyn Həşimlinin elmi maraq dairəsinin genişliyini və zənginliyini bir daha nümayiş etdirir. XX əsrin əvvəllərində çap olunmuş “Yeni füyuzat” və “Şeypur” jurnallarının mətnlərinin transliterasiyası və nəşri işi də Hüseyn Həşimlinin adı ilə bağlıdır. Hüseyn Həşimli mətnşünas ağırlıqlı ədəbiyyat tarixçisi və ədəbiyyat tarixçiliyinin də iştirak etdiyi ədəbiyyat nəzəriyyəçisidir. Bu, Azərbaycan ədəbiyyatşünaslıq elmində fərqli bir yoldur. Həmin elmi istiqamətin inkişaf etdirilməsində Hüseyn Həşimlinin böyük zəhməti vardır.

Professor Hüseyn Həşimli ölkə miqyasında qəbul edilən görkəmli ədəbiyyatşünas alim idi. O, bəlkə də, respublikamızda elmlər namizədi alimlik dərəcəsində “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüş ilk elm adamı olmuşdur. Hüseyn Həşimlinin elmi əsərləri Azərbaycan ədəbiyyatşünaslıq elmini zənginləşdirən fundamental tədqiqatlardır. Fəaliyyətində elmlə pedaqoji fəaliyyəti birləşdirən Hüseyn Həşimli Naxçıvan Dövlət Universitetində Ədəbiyyat nəzəriyyəsi və Orta əsrlər Azərbaycan ədəbiyyatı fənlərindən otuz ildən çox dərs demişdir. Onun mühazirələri də ədəbiyyat tarixçiliyi ilə ədəbiyyat nəzəriyyəsinin üzvi vəhdətindən yoğrulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi də Hüseyn Həşimli ictimai-siyasi və elmi-mədəni mühitdə çox yaxından və fəal surətdə iştirak etmişdir. Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru kimi də Hüseyn Həşimli səmərəli fəaliyyət göstərmişdir. O, tədris işinin təşkili, planlaşdırılması, idarə olunması və metodikasını elm səviyyəsində qavramışdır.

Uzun illər ərzində Hüseyn Həşimli sona qədər bölüşdüyüm və ortaq cavab ala bildiyim azsaylı insanlardan biri kimi də mənim üçün unudulmazdır.

*Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində də Hüseyn Həşimli ürəklə işə başlamışdı. İnstitutun da, özünün də ciddi elmi planları, bizimlə ortaq layihələrimiz var idi. İnanıram ki, Naxçıvan Dövlət Universitetində və AMEA Naxçıvan Bölməsindəki həmkarları və yetirmələri görkəmli alim, aydın elmi sima, etibarlı dost və böyük müəllim Hüseyn Həşimlinin xəttini davam etdirəcəklər…*

**İsa HƏBİBBƏYLİ**
***AMEA-nın birinci vitse-prezidenti, akademik***

## Hərbçi ailələrinə yeni xidməti mənzillər verilib

***26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Naxçıvan hərbi şəhərciyində zabit-gizir ailələrinə yeni xidməti mənzillər təqdim edilib.***

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Silahlı Qüvvələr Günü və yeni xidməti mənzillərin təqdim olunması münasibətilə hərbi qulluqçuları və ailə üzvlərini təbrik edib.

General-polkovnik Kərəm Mustafayev ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində hərbi infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, zabit-gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına və səmərəli istirahətinin təşkilinə xüsusi diqqət yetirilir. Hərbçi ailələrinə yeni xidməti mənzillərin təqdim edilməsi də növbəti qayğının ifadəsidir.

Mənzillə təmin olunan zabit Emil Hüseynov 8 ildir ki, muxtar respublikada xidmət etdiyini, bu müddətdə hərbi qulluqçuların sosial-məişət şəraitinin daim diqqətdə saxlanıldığının şahidi olduğunu bildirib, bundan sonra da nümunəvi xidmət edəcəklərinə söz verib.

Cəlilabad rayonundan olan hərbçi ailəsinin üzvü Zəhra Quluzadə Naxçıvanda yaşadıqları müddətdə onlara göstərilən dövlət qayğısından danışıb. “Əsaslı təmir olunaraq istifadəmizə verilən tam təmirli mənzillər rahat yaşayışımız üçündür”, – deyən Zəhra Quluzadə hərbçi ailələri adından dövlətimizə minnətdarlıq edib.

Çıxışların ardından binaya baxış olub.



Qeyd edək ki, zirzəmi ilə birlikdə 4 mərtəbəli binanın birinci mərtəbəsində dərzi, ayaqqabı təmiri sexi, hərbi və qarışıq mallar mağazaları fəaliyyət göstərəcək. Fərdi qazanxana sistemi quraşdırılan binada Naxçıvan Qarnizonu Mənzil İstismar İdarəsinin bölmələri üçün iş otaqları da yaradılıb. Binanın 2-ci, 3-cü və 4-cü mərtəbələrinin hər birində 13 mənzil olmaqla, ümumilikdə, 39 mənzilin hər biri müasir mebel dəstləri və lazımi məişət əşyaları ilə təmin olunub. Ərazidə abadlıq işləri aparılıb, istirahət guşələri və oturacaqlar quraşdırılıb, dekorativ ağac və gül kolları əkilib.

**Nəriman NƏCƏFOV**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 30 iyun - 30 iyul 2020-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında (www.dqmk.nmr.az) "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat 9[00]-dan 12[30]-dək və 14[00]-dan 17[30]-dək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| | **Naxçıvan şəhəri üzrə:** | | | | |
| 6910114 | 1 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910314 | 3 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6910318 | 3 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 2 | 24 | * |
| 6910312 | 3 №-li tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6910414 | 4 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910522 | 5 №-li tam orta məktəb | Alman dili | 2 | 24 | |
| 6910814 | 8 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911214 | 12 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911422 | 14 №-li tam orta məktəb | Alman dili | 1 | 12 | |
| | **Cəmi:** | **11 yer** | | | |
| | **Şərur rayonu üzrə:** | | | | |
| 6900409 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Fizika | 1 | 12 | |
| 6900420 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | İngilis dili | 1 | 18 | |
| 6900421 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Rus dili | 1 | 13 | |
| 6920809 | Axaməd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920920 | Axura kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920910 | Axura kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6920313 | Alışar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920309 | Alışar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920409 | Aralıq kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925707 | Aşağı Yaycı kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6925711 | Aşağı Yaycı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6925713 | Aşağı Yaycı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921118 | Çəmənli kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6921325 | Çomaxtur kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6921316 | Çomaxtur kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6921521 | Dəmirçi kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921610 | Dərəkənd kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6921811 | Diyadin kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6922112 | Ələkli kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6922219 | Ərəbyengicə kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6922325 | Gümüşlü kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6922318 | Gümüşlü kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6922310 | Gümüşlü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922413 | Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6922412 | Havuş kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6922520 | Həmzəli kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6922510 | Həmzəli kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924922 | Xanlıqlar kənd tam orta məktəbi | Alman dili | 1 | 10 | |
| 6925022 | Xələc kənd tam orta məktəbi | Alman dili | 1 | 11 | |
| 6925013 | Xələc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925014 | Xələc kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6925018 | Xələc kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6922910 | Kürçülü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6923820 | Qarahəsənli kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6923713 | Qaraburc kənd ümumi orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923709 | Qaraburc kənd ümumi orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923718 | Qaraburc kənd ümumi orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6923708 | Qaraburc kənd ümumi orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6924013 | Qorçulu kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924020 | Qorçulu kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6923213 | Maxta kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923218 | Maxta kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6923221 | Maxta kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6923215 | Maxta kənd tam orta məktəbi | Texnologiya | 1 | 12 | |
| 6923619 | Püsyan kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6923616 | Püsyan kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6924113 | Sərxanlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924220 | Siyaqut kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6924413 | Şəhriyar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924513 | Tənənəm kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6924510 | Tənənəm kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6924613 | Təzəkənd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6924713 | Tumaslı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924710 | Tumaslı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924822 | Vərməziyar kənd tam orta məktəbi | Alman dili | 1 | 11 | |
| 6925221 | Yengicə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6925313 | Yeni Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925309 | Yeni Havuş kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925308 | Yeni Havuş kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6925413 | Yuxarı Daşarx kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925512 | Yuxarı Yaycı kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| | **Cəmi:** | **63 yer** | | | |
| | **Babək rayonu üzrə:** | | | | |
| 6930513 | Cəhri qəsəbə 1 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | ** |
| 6930518 | Cəhri qəsəbə 1 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | ** |
| 6930612 | Cəhri qəsəbə 2 №-li tam orta məktəb | Tarix | 1 | 12 | ** |
| 6932122 | Nehrəm qəsəbə 1 №-li tam orta məktəb | Alman dili | 1 | 12 | |
| 6932222 | Nehrəm qəsəbə 2 №-li tam orta məktəb | Alman dili | 2 | 24 | |
| 6932320 | Nehrəm qəsəbə 3 №-li tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6930420 | Aşağı Buzqov kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6930911 | Gərməçataq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6930921 | Gərməçataq kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6930912 | Gərməçataq kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6931020 | Göynük kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6931012 | Göynük kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6931222 | Güznüt kənd tam orta məktəbi | Alman dili | 1 | 11 | |
| 6931213 | Güznüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931420 | Kərimbəyli kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6931507 | Kültəpə kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6932514 | Qahab kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6932516 | Qahab kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6932521 | Qahab kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6932613 | Qaraqala kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6932610 | Qaraqala kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6931613 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931621 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6931714 | Məzrə kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6931813 | Naxışnərgiz kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931821 | Naxışnərgiz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6931914 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6931912 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6932010 | Nəhəcir kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6932021 | Nəhəcir kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6932409 | Payız kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6932420 | Payız kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6932712 | Sirab kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6933021 | Uzunoba kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933114 | Vayxır kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6933420 | Yarımca kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6933421 | Yarımca kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933511 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6933520 | Yuxarı Buzqov kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| | **Cəmi:** | **40 yer** | | | |
| | **Ordubad rayonu üzrə:** | | | | |
| 6940122 | Ordubad şəhər 1 №-li tam orta məktəb | Alman dili | 1 | 14 | |
| 6940119 | Ordubad şəhər 1 №-li tam orta məktəb | İnformatika | 1 | 14 | |
| 6940319 | Ordubad şəhər tam orta internat məktəbi | İnformatika | 1 | 20 | |
| 6940308 | Ordubad şəhər tam orta internat məktəbi | Riyaziyyat | 1 | 20 | |
| 6940409 | Aşağı Əylis kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6940614 | Azadkənd kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | ** |
| 6940625 | Azadkənd kənd tam orta məktəbi | Fransız dili | 1 | 18 | ** |
| 6940707 | Baş Dizə kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 15 | ** |
| 6940807 | Behrud kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 15 | ** |
| 6940813 | Behrud kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6940818 | Behrud kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | ** |
| 6940808 | Behrud kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6940913 | Biləv kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6941009 | Bist kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6941020 | Bist kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6941118 | Çənnəb kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | ** |
| 6941119 | Çənnəb kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6941120 | Çənnəb kənd tam orta məktəbi | İngilis dili | 1 | 22 | ** |
| 6941121 | Çənnəb kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6941409 | Dırnıs kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6941618 | Düylün kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | |
| 6941620 | Düylün kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6941610 | Düylün kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941761 | Ələhi kənd ümumi orta məktəbi | Biologiya-kimya | 1 | 12 | ** |
| 6941708 | Ələhi kənd ümumi orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6941712 | Ələhi kənd ümumi orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6941911 | Gənzə kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6941910 | Gənzə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6942020 | Gilançay kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | ** |
| 6942010 | Gilançay kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943413 | Xanağa kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6943520 | Xurs kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6943562 | Xurs kənd tam orta məktəbi | Riyaziyyat-informatika | 1 | 15 | ** |
| 6942122 | Kələki kənd tam orta məktəbi | Alman dili | 1 | 18 | ** |
| 6942111 | Kələki kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6942113 | Kələki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942118 | Kələki kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | ** |
| 6942110 | Kələki kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942115 | Kələki kənd tam orta məktəbi | Texnologiya | 1 | 12 | ** |
| 6942361 | Nəsirvaz kənd tam orta məktəbi | Biologiya-kimya | 1 | 15 | ** |
| 6942413 | Nürgüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942409 | Nürgüt kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6942420 | Nürgüt kənd tam orta məktəbi | İngilis dili | 1 | 22 | ** |
| 6942462 | Nürgüt kənd tam orta məktəbi | Riyaziyyat-informatika | 1 | 18 | ** |
| 6942509 | Nüsnüs kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6942607 | Parağa kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 13 | ** |
| 6942618 | Parağa kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | ** |
| 6942610 | Parağa kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942612 | Parağa kənd tam orta məktəbi | Tarix | 1 | 18 | ** |
| 6942807 | Sabirkənd kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 15 | ** |
| 6942913 | Tivi kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6943022 | Unus kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6943010 | Unus kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943111 | Üstüpü kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6943113 | Üstüpü kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6943110 | Üstüpü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943210 | Vələver kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943311 | Vənənd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6943618 | Yuxarı Əylis kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6943610 | Yuxarı Əylis kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| **Cəmi:** | | **60 yer** | | | |
| **Culfa rayonu üzrə:** | | | | | |
| 6950511 | Boyəhməd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6950613 | Camaldın kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6950610 | Camaldın kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6950813 | Əbrəqunus kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6950914 | Əlincə kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6951013 | Ərəfsə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6951211 | Gal kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6951212 | Gal kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6951313 | Göydərə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6951318 | Göydərə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 28 | ** |
| 6951413 | Gülüstan kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6952314 | Xanəgah kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6951809 | Qazançı kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6951910 | Qızılca kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6952022 | Saltaq kənd tam orta məktəbi | Alman dili | 1 | 10 | ** |
| 6952020 | Saltaq kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6952113 | Şurud kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6952120 | Şurud kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6952110 | Şurud kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6952211 | Teyvaz kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6952221 | Teyvaz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6952514 | Yaycı kənd 1 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6952609 | Yaycı kənd 2 №-li tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6952621 | Yaycı kənd 2 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| **Cəmi:** | | **25 yer** | | | |
| **Kəngərli rayonu üzrə:** | | | | | |
| 6970120 | Qıvraq qəsəbə tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6970222 | Böyükdüz kənd tam orta məktəbi | Alman dili | 1 | 10 | |
| 6970210 | Böyükdüz kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6971018 | Xok kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6971016 | Xok kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6971008 | Xok kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6970907 | Xıncab kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | ** |
| 6970909 | Xıncab kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6970920 | Xıncab kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6970908 | Xıncab kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6970411 | Qabıllı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6970418 | Qabıllı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6970420 | Qabıllı kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6970410 | Qabıllı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970512 | Qarabağlar kənd 1 №-li tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6970621 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | Rus dili | 1 | 18 | |
| 6970819 | Təzəkənd kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | ** |
| 6971113 | Yeni Kərki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6971211 | Yurdçu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6971210 | Yurdçu kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| **Cəmi:** | | **20** | | | |
| **Şahbuz rayonu üzrə:** | | | | | |
| 6960213 | Şahbuz şəhər 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960411 | Ağbulaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6960413 | Ağbulaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960507 | Ayrınc kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6960513 | Ayrınc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960613 | Badamlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960811 | Biçənək kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6961011 | Gömür kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961010 | Gömür kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961111 | Güney Qışlaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961110 | Güney Qışlaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961108 | Güney Qışlaq kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 18 | |
| 6961213 | Keçili kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961310 | Kolanı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961308 | Kolanı kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6961410 | Kükü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961813 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961814 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6961611 | Mahmudoba kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961613 | Mahmudoba kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961711 | Nursu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962011 | Şada kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962013 | Şada kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962009 | Şada kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6962018 | Şada kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6962020 | Şada kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6962010 | Şada kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6962213 | Türkeş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962220 | Türkeş kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6962313 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962318 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6962320 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İngilis dili | 1 | 15 | |
| **Cəmi:** | | **33 yer** | | | |
| **Sədərək rayonu üzrə:** | | | | | |
| 6980109 | Heydərabad qəsəbə tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6980118 | Heydərabad qəsəbə tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6980209 | Qaraağac kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6980220 | Qaraağac kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6980212 | Qaraağac kənd tam orta məktəbi | Tarix | 1 | 14 | |
| 6980322 | Sədərək kənd 1 №-li tam orta məktəb | Alman dili | 2 | 24 | |
| 6980309 | Sədərək kənd 1 №-li tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6980314 | Sədərək kənd 1 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6980318 | Sədərək kənd 1 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 3 | 54 | |
| 6980320 | Sədərək kənd 1 №-li tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| 6980418 | Sədərək kənd 2 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980420 | Sədərək kənd 2 №-li tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| **Cəmi:** | | **15 yer** | | | |
| **YEKUN:** | | **267 yer** | | | |

(*) Naxçıvan şəhər 3 №-li tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(**) Bu müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli Qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

## Naxçıvan Muxtar Respublikası üzrə 29 iyun 2020-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1028 | 191 | 535 | 28,0 |
| 2. | Şərur rayonu | 4865 | 326 | 1121 | 34,4 |
| 3. | Babək rayonu | 11767 | 3873 | 11743 | 30,3 |
| 4. | Ordubad rayonu | 1804 | 1336 | 3823 | 28,6 |
| 5. | Culfa rayonu | 7589 | 3344 | 10140 | 30,3 |
| 6. | Kəngərli rayonu | 5906 | 3500 | 10374 | 29,6 |
| 7. | Şahbuz rayonu | 1563 | - | - | - |
| 8. | Sədərək rayonu | 2357 | 570 | 2039 | 35,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **36879** | **13140** | **39775** | **30,3** |

### *Bildiriş*

"Lider.Az" MMC-nin hüquqi adı dəyişdirilərək "Sürət Karqo" MMC-yə çevrilmişdir.

### *İtmişdir*

Şərur rayonu, Yengicə kənd sakini Allahverdiyev Allahverdi Əli oğlunun adına olan JN-195 inventar nömrəli, 10207018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Pərviz Hacılı**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 477**